

# GÜNDOĞAR

Qəzet 1931 - ci ildən çap edilir | NEFTÇALA RAYON QƏZETİ | 30 APREL 2024 - cü il, № 4(68066)




**ULU ÖNDƏR HEYDƏR ƏLİYEV DEMİŞDİR:**
**"Hər bir vətəndaş vətənpərvər olmalıdır. Əgər öz vətənini, torpağını, xalqını sevməsən, öz xalqının mənəvi dəyərlərinə sadiq olmasan, şübhəsiz ki, başqa şeyləri də qiymətləndirə bilməzsən. İndi bizim əsas vəzifəmiz gənclərdə vətənpərvərlik ruhunu, milli ruhu, döyüş ruhunu qaldırmaqdır. Vətəni, torpağı müdafiə etmək, hər bir gənc üçün müqəddəs vəzifə olmalıdır".**

# AZƏRBAYCANIN BEYNƏLXALQ ƏLAQƏLƏRİ UĞURLA DAVAM EDİR



Aprelin 26-da Almaniyaya səfəri zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə geniş tərkibdə görüşü keçirilib. Görüşdə "Petersberq İqlim Dialoqu"nun əhəmiyyəti və Prezident İlham Əliyevin bu tədbirdə çıxışı qeyd olundu.

Söhbət zamanı COP29-la əlaqədar Almaniya ilə Azərbaycan arasında uğurlu əməkdaşlıq və heyətlər arasında görüşlərin önəmi xüsusi vurğulandı. COP29-la bağlı yaradılan "üçlük" mexanizminin əhəmiyyətinə toxunuldu, Almaniyanın COP29-la əlaqədar Azərbaycana bundan sonra da dəstək göstərəcəyi diqqətə çatdırıldı.

Prezident İlham Əliyev qeyd etdi ki, Ermənistan ilə Azərbaycan arasında sülh gündəliyinin təşəbbüskarı məhz Azərbaycan tərəfi olub. Belə ki, sülh gündəliyinin əsasını təşkil edən fundamental prinsiplər Azərbaycan tərəfindən formalaşdırılıb və təqdim olunub. Azərbaycan tərəfi, həmçinin bunun əsasında sülh müqaviləsinin mətnini hazırlayıb.

Dövlətimizin başçısı Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Almaniya Kansleri Olaf Şoltsun dəstəyi ilə Ermənistanın baş naziri ilə keçirilmiş görüşü, bu görüş çərçivəsində də məhz delimitasiya və demarkasiya məsələlərinin, sülh gündəliyinin irəlilədilməsinə dair müsbət müzakirələrin olduğunu qeyd etdi. Prezident İlham Əliyev qeyd etmişdir ki, Almaniyanın xarici işlər nazirinin dəstəyi ilə Ermənistanın və Azərbaycanın xarici işlər nazirləri arasında görüş keçirildi və bu görüşdə sülh müqaviləsi üzrə əsaslı müzakirələr aparıldı.



## UĞURLU XARİCİ SİYASƏT - DAVAMLI ZƏFƏRDİR!



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Malayziyanın Parlament Senatının prezidenti Datuk Mutanq Taqalı qəbul edib.**

**Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin müsbət istiqamətdə inkişaf etdiyini bildirərək iqtisadi sahədə də əlaqələrimizin fəallaşacağına ümidvar olduğunu vurğuladı.**

**Prezident İlham Əliyev Malayziyanın beynəlxalq aləmdə Azərbaycana göstərdiyi dəstəyə toxunaraq həm torpaqlarımızın işğalı zamanı, həm də tarixi nailiyyətimiz olan ərazilərimizin işğaldan azad olunmasından, suverenliyimizin və ərazi bütövlüyümüzün bərpasından sonra Malayziyanın ölkəmizə daim dəstək göstərməsini yüksək qiymətləndirdi. Azərbaycan Prezidenti torpaqlarımızın ermənilər tərəfindən işğalı dövründə həmin ərazilərimizdə məhv edilmiş dini-tarixi abidələrimiz barədə məlumat verdi.**

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Çin Xalq Respublikasının Xarici ölkələrlə dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri Yan Vanmini qəbul edib.



Görüş zamanı Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev Azərbaycan-Çin siyasi əlaqələrinin yüksək səviyyədə olduğunu vurğulayaraq ikitərəfli münasibətlərdə son vaxtlar böyük canlanmanın baş verdiyini qeyd etdi. Nəqliyyat sahəsində çox fəal birgə işlərin aparıldığını deyən Prezident İlham Əliyev bu baxımdan Transxəzər nəqliyyat dəhlizinin Orta Dəhlizin bir hissəsi olduğunu vurğuladı. Dövlətimizin başçısı sərmayə qoyuluşu nöqteyi-nəzərindən yaxşı irəliləyişin olduğunu dedi. Belə ki, Çin şirkətləri Azərbaycana daha böyük həcmdə sərmayə qoyur. Dövlətimizin başçısı, eyni zamanda, COP29-un ölkəmizdə keçirilməsi ilə əlaqədar Azərbaycan-Çin məsləhətləşmələrinin aparıldığını vurğuladı. Prezident İlham Əliyev humanitar sahədə də gündəliyin kifayət qədər geniş olduğunu bildirdi, Yan Vanminin ölkəmizə səfərinin əməkdaşlığımızın genişlənməsinə töhfə verəcəyinə əminliyini ifadə etdi.

Qəbula görə minnətdarlığını bildirən qonaq, ilk növbədə, Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Yan Vanmin Ulu Öndər Heydər Əliyevin və bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın böyük inkişaf yolu keçdiyini, ölkədə siyasi sabitliyin bərqərar olunduğunu, iqtisadi yüksəlişin əldə edildiyini, əhalinin rifah halının yüksəldiyini və respublikamızın beynəlxalq aləmdə layiqli yerini tutduğunu vurğuladı. O qeyd etdi ki, bütün bunlar Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində mümkün olub.

COP29-un təşkilində də Çinin Azərbaycana dəstəyini qeyd edən qonaq Prezident İlham Əliyevin rəhbərliyi ilə bu tədbirin uğur qazanacağına inamını ifadə etdi.Eyni zamanda bildirdi ki, Ulu Öndərin ölkələrimiz arasında münasibətlərin inkişafında roluna bir daha toxunan qonaq dedi: ***"Biz Çin-Azərbaycan münasibətləri haqqında danışarkən Sizin atanız Heydər Əliyevin töhfələrini unuda bilmərik. Çin xalqı çox yaxşı xatırlayır: Heydər Əliyev Prezident seçildikdən çox qısa müddət sonra - 1994-cü ildə Çinə səfər etdi və Çinin o vaxt rəhbərliyi ilə birlikdə xalqlarımız arasında əlaqələrin möhkəm təməlini qoydu. Heydər Əliyev o zaman xüsusilə Çin kəndinə gedərək sadə insanlarla görüşdü. Bu, Çin xalqının yaddaşında əbədi qalacaq. Siz bu gün atanızın siyasətini davam etdirərək Çinə altı dəfə səfər etmisiniz. Çin xalqı Sizə böyük hörmətlə yanaşır"...***

# HEYDƏR ƏLİYEV FONDU - 20

## HEYDƏR ƏLİYEV FONDU AZƏRBAYCAN HƏQİQƏTLƏRİNİN BEYNƏLXALQ DƏSTƏK QAZANMASINA NAİL OLUB

HEYDƏR ƏLİYEV FONDU

Zəngin dünyəvi dəyərlərə malik maddi və mənəvi irsimiz Azərbaycanın tarixi sərvəti, bəşəri irsə verdiyi ən böyük töhfəsidir. Şərqlə Qərb arasında keçid rolunu oynayan, sivilizasiyalararası dialoq mərkəzinə çevrilən Azərbaycan öz əhəmiyyətinə görə bütün dünyanın diqqət mərkəzində olub-olacaqdır. Bu baxımdan ölkəmizin əldə etdiyi tarixi nailiyyətlərin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi, eləcə də dünyada təbliği dövlətçiliyimizin strateji prioritetləri sırasında mühüm yeri tutur. Bu prioritetin reallaşması isə Azərbaycan hökuməti ilə yanaşı, Heydər Əliyev Fondunun da fəaliyyətinin ana xəttini təşkil edir.

Ulu Öndərin zəngin mənəvi irsini, onun Azərbaycançılıq ideyalarını gənc nəsillərə aşılamaq, Ümummilli Liderin qurub-yaratdığı müstəqil Azərbaycanın daha da çiçəklənməsində yaxından iştirak etmək, insanlara daim kömək əli uzatmaq, xeyirxah işlər görmək Heydər Əliyev Fondunun və onun prezidenti Mehriban Əliyevanın fəaliyyətinin əsas qayəsini təşkil edir. **“... Fond Heydər Əliyevin siyasi irsini öyrənəcək, onu təhlil, tədqiq və təbliğ edəcəkdir. Fondun qarşısında böyük vəzifələr durur. Fond ictimai təşkilatdır. Ümid edirəm ki, Azərbaycanın ictimai həyatında Fondun rolu böyük olacaqdır”.** Bu fikirləri Prezident İlham Əliyev 2004-cü ildə Heydər Əliyev Fondunun açılış mərasimindəki nitqində bildirib. Dövlətimizin başçısının qeyd etdiyi bu fikirlər ötən 20 il ərzində Heydər Əliyev Fondunun Proqramlarının formalaşmasında və reallaşmasında öz əksini tapıb.

Məlum olduğu kimi, mayın 10-da Heydər Əliyev Fondunun yaradılmasının 20 ili tamam olur. 2004-cü ildən fəaliyyətə başlamış Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir. Həmçinin, Azərbaycan mədəniyyətinin geniş təbliği, sağlam həyat tərzinin təşviqi və mənəvi dəyərlərin qorunması, uşaq və gənclərin hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi, ölkənin yaradıcı və elmi potensialının yüksəldilməsi, Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun artırılması, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması Heydər Əliyev Fondunun ötən 20 ildə reallaşdırdığı işlər sırasındadır. Bir sözlə, Heydər Əliyev Fondunun fəaliyyəti ölkənin ictimai həyatının bütün sahələrini əhatə edir. Ən əsası isə odur ki, Heydər Əliyev Fondu Ulu Öndərin ideyalarını böyük əzmlə və sədaqətlə həyata keçirir.

***Heydər Əliyev Fondu Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində məqsədyönlü və ardıcıl iş aparır.***

“Azərbaycan xalqı dünya xalqları içərisində öz yüksək mədəniyyəti ilə, elmi, zəkası ilə seçilən bir xalqdır. Bizim – bugünkü nəsillərin, gələcək nəsillərin vəzifəsi bunu dünyaya göstərmək sonrakı nəsillərə çatdırmaqdan ibarətdir”, - deyən Heydər Əliyev hər bir Azərbaycan vətəndaşının qarşısında ciddi vəzifələr qoyurdu. Fəaliyyətində Ulu Öndərin ideyalarına, qarşıya qoyduğu vəzifələrə söykənən Heydər Əliyev Fondu bu istiqamətdə də ciddi işlər görür. Fondun çoxşaxəli fəaliyyətinin əsas istiqamətlərindən biri də mədəniyyətimizin, dövlətçilik ənənələrimizin, tariximizin dünyada təbliği işinə yönəlib. Keçmiş Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı əsl həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Xocalı soyqırımının tanıdılması, mədəniyyətimizin, tariximizin, dövlətçilik ənənələrimizin xaricdə təbliği işinin düzgün qurulması nəticəsində ciddi nailiyyətlər əldə olunub.

***Fondun dəstəyi ilə hər il müxtəlif ölkələrdə Xocalı faciəsinə həsr olunmuş konfranslar, tədbirlər keçirilir, bu istiqamətdə xüsusi təbliğat aparılır. Bundan başqa, keçirilən “Xocalıya ədalət!” beynəlxalq təbliğat-təşviqat kampaniyası Xocalı soyqırımı haqqında həqiqətlərin dünyada bilinməsi, bu faciənin Azərbaycan xalqına qarşı soyqırım aktı kimi tanınması üçün həyata keçirilən məqsədyönlü fəaliyyət istiqamətlərindən biri kimi dəyərləndirilməlidir.***

Azərbaycan həqiqətlərini və keçmiş Qarabağ münaqişəsinin əsl mahiyyətini beynəlxalq ictimaiyyətə çatdırmaq məqsədilə Heydər Əliyev Fondu tərəfindən Xocalı soyqırımı hər il dünyanın 100-dən artıq nöqtəsində qeyd olunur. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə 2008-ci ildən etibarən fəaliyyətə başlamış "Xocalıya ədalət" beynəlxalq təbliğat-təşviqat kampaniyası erməni cinayətlərinin dünya miqyasında ifşası üçün əlverişli mühit formalaşdırmışdır. Bu kampaniya təkcə İslam Əməkdaşlıq Təşkilatı (İƏT) ölkələrini əhatə etmir, Avropa məkanında, ABŞ-da, Rusiyada da bu deviz altında genişmiqyaslı tədbirlər aparılır. Bu kampaniya çərçivəsində görülən işlər dünya ictimaiyyətinin keçmiş Qarabağ münaqişəsi və Xocalı soyqırımı həqiqətlərindən xəbərdar olmasına imkan verir.

Beynəlxalq kampaniya dünyanın müxtəlif ölkələrində Xocalı faciəsi ilə bağlı real faktların foto və film sərgiləri, internet, beynəlxalq konfranslar və nümayişlər, o cümlədən aparıcı beynəlxalq təşkilatların nümayəndələri ilə görüşlərin keçirilməsi vasitəsilə çatdırılmasına nail olub. Fondun gərgin əməyi və məqsədyönlü fəaliyyəti nəticəsində Xocalı soyqırımı ilə bağlı 100-ə qədər materialın xaricdə sərgisi təşkil edilib. Kampaniya Azərbaycan gəncliyinin Qarabağ həqiqətlərini, münaqişənin həllində ölkəmizin ədalətli mövqeyini və Xocalı soyqırımını bütün təfərrüatı ilə dünya ictimaiyyətinin diqqətinə çatdırması baxımından müasir tariximizin mühüm mərhələsi olub. Ümumiyyətlə, bu günədək Avropa, Asiya, Afrika, Şimali və Cənubi Amerikanın 70-dən çox ölkəsində bu faciə ilə əlaqədar tədbirlər keçirilib. Tədbirlər çərçivəsində müxtəlif ölkələrin parlamentləri və dövlət qurumları qarşısında etiraz aksiyaları, piketlər, habelə seminarlar, konfranslar keçirilib, kitablar nəşr olunub, filmlər çəkilib. “Xocalıya ədalət!” kampaniyası bu tədbirlərə daha çox insanın cəlb olunmasında və bu tədbirlərin daha geniş coğrafiyaya yayılmasında ciddi rol oynayıb. Aparılan ümumi işin nəticəsi olaraq bu gün dünyanın bir çox ölkə və təşkilatları Xocalı hadisələrini soyqırımı kimi tanıyıb. Meksika Senatı Xocalı faciəsini soyqırımı adlandırıb, Pakistan soyqırımı pisləyən qətnamə qəbul edib, Kolumbiya Parlamenti hadisəni soyqırım kimi tanıyıb, Çexiya, Bosniya və Herseqovina parlamentləri Xocalı soyqırımını rəsmən tanıyıb, Peru, Honduras, Cibuti parlamenti, ABŞ-ın 24 ştatı Xocalıda qırğın törədilməsi faktının tanınması haqqında qətnamə qəbul edib. Bundan başqa, İslam Əməkdaşlıq Təşkilatı da Xocalı qətliamını soyqırımı və insanlığa qarşı cinayət kimi tanıyıb və bu proses davam etməkdədir.

Qeyd edək ki, Xocalı soyqırımı barədə həqiqətlərin dünyaya yayılması, 44 günlük Vətən



müharibəsi gedişində ədalətli mövqeyimizin dəstəklənməsi baxımından xüsusi siyasi əhəmiyyət daşıyıb. “Xocalıya ədalət!” çərçivəsində illərlə davam etdirilən məqsədyönlü işlərin Böyük Qələbəmizdə xüsusi yeri vardır. Kampaniya bu gün də bir çox ölkələrdə səmərəli şəkildə fəaliyyət göstərir və hazırkı tarixdə 120 mindən çox şəxs və 115 təşkilat onun fəaliyyətini dəstəkləyir.

Bununla yanaşı, keçmiş Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, təcavüzkarın ifşası baxımından Heydər Əliyev Fondunun müxtəlif dillərdə nəşr etdirdiyi kitablar da mühüm əhəmiyyətə malikdir. “Qarabağ xanəndələri” adlı, Azərbaycan, ingilis, rus, fransız dillərində olan musiqi albomunun, Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağ haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq məqsədilə “Qarabağ həqiqətləri” silsiləsinin, “Qarabağ həqiqətləri” bukletlər toplusunun, “Müharibə və tarixi mədəniyyət abidələrimiz”, Parisdə ingilis dilində “Azərbaycana qarşı müharibə: mədəni irsin hədəfə alınması”, “Muğam haqqında əlyazmalar toplusu” ,“Qarabağ xanəndələri” musiqi albomunun və s. nəşri Azərbaycanın ayrılmaz guşələrindən biri olan Qarabağda ermənilər tərəfindən törədilən amansızlıqların, torpaqlarımızın işğalı dövründə tarixi mədəniyyət abidələrinin məhv olunması və ya dəyişdirilməsi faktlarının dünya ictimaiyyətinə çatdırılması yolunda mühüm vasitə olmuşdur. Fondun Qarabağ həqiqətlərinin, Azərbaycanın zəngin tarixinin tanıdılması istiqamətində reallaşdırdığı fəaliyyət obyektiv və dürüst informasiya almağa imkan yaradır.

→ 5

# Baş prokuror Neftçala rayonunda vətəndaşları qəbul edib








**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**

**Aprelin 6-da Baş prokuror Kamran Əliyev Neftçala Rayon Prokurorluğunun inzibati binasında Neftçala, Hacıqabul, Salyan rayon, Şirvan şəhər və digər bölgələrdən olan vətəndaşları qəbul edib. Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.**

**Qəbulda iştirak edən 29 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib. Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb, eləcə də prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair təklifləri dinləyib.**

## *"NURLU ÖMRÜN SALNAMƏSİ - ZƏRİFƏ ƏLİYEVA"*

## AKADEMİK ZƏRİFƏ XANIM ƏLİYEVANIN ANADAN OLMASININ 101- Cİ İLDÖNÜMÜ QEYD EDİLDİ





Neftçala Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə akademik Zərifə xanım Əliyevanın doğum gününə həsr olunan "Nurlu ömrün salnaməsi – Zərifə Əliyeva" adlı tədbir keçirilib.

Tədbirdə Neftçala Rayon İcra Hakimiyyətinin məsul şəxsləri, şəhid anaları, rayonun hüquq-mühafizə orqanlarında, bələdiyyə, idarəetmə sistemində, təhsil, səhiyyə və mədəniyyət sahəsində çalışan xanımlar iştirak edib.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, görkəmli akademik Zərifə Əliyevanın, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi zamanı şəhid olan hərbi qulluqçuların ruhu bir dəqiqəlik sükutla yad olunub və Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən Neftçala RİH-i aparatının aparıcı məsləhətçisi Esmira Məmmədzadə, həkim oftalmoloq Süsən Zeynalova, "Gündoğar" qəzetinin baş redaktoru Bədirə Niftaliyeva, həkim-lor Şölə İsmayılıova, Şirvan-Salyan Regional Gənclər və İdman İdarəsinin Neftçala rayonu üzrə gənclər və idman sektorunun baş məsləhətçisi Xannənə Ağayeva müasir Azərbaycan qadınına xas ən yüksək keyfiyyətləri özündə əks etdirən gözəl ailə başçısı, qayğıkeş ana, peşəkar həkim, dünya şöhrətli alim, cəmiyyətdəki mövqeyi və uğurlu ictimai, elmi fəaliyyəti ilə sözün əsl mənasında böyük şəxsiyyət olan, bütöv və hərtərəfli şəxsiyyətində, zəngin elmi fəaliyyətində işıqlı keyfiyyətləri yüksək səviyyədə yaşadan görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın mənalı ömür yolundan, bu yolun qiymətli nümunəyə çevrilərək həyatında və fəaliyyətində elmin işığına, yeni-yeni ziyalı nəsillər üçün örnək olduğu bildirilib. Azərbaycan səhiyyəsinin, Azərbaycan tibb elmi və tibb təhsili sisteminin mahir təşkilatçısı, qurucusu və yaradıcılarından olan görkəmli akademikin ömrünün sonuna qədər övladlarının yoluna işıq saçdığı, o cümlədən özündən sonra elmin inkişafına xidmət göstərəcək tələbələrinə yol göstərən əbədi bir mayaka çevrilməsi diqqətə çatdırılıb. Çıxış edənlər Zərifə xanım Əliyeva haqqında xoş xatirələrini bölüşüblər.

Görüşdə Zərifə xanım Əliyevanın həyatını əks etdirən, dəyərli alim haqqında xoş xatirələrlə zəngin olan video çarx izlənilib.

## SƏYYAR GÖRÜŞLƏR DAVAM EDİR





**Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov aprel ayının 25-də Boyat kənd sakinləri ilə növbəti səyyar görüşünü keçirib. Vətəndaş qəbulunda Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, RİH-in məsul şəxsləri, hüquq- mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri, şəhid ailələri, qazilər və kənd sakinləri iştirak edib. Görüşdən öncə Boyat kəndində şəhidlərin xatirəsinə inşa olunan xatirə kompleksi ziyarət olunub və önünə gül dəstələri düzülüb.**

**Görüşdə Ulu Öndər Heydər Əliyevin, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi zamanı şəhid olan hərbi qulluqçuların ruhu bir dəqiqəlik sükutla yad olunub. Səyyar görüşdə çıxış edənlər *"Ulu Öndər Heydər Əliyevin ömür yolu, Vətənə və Xalqa xidmət nümunəsidir"* mövzusunda görüş iştirakçılarını məlumatlandırıblar. Ümummilli Lider Heydər Əliyevin dövlətə, xalqa ləyaqətlə xidməti haqqında ətraflı məlumat verilib. Səyyar qəbul zamanı vətəndaşlar daxili yolların təmiri, ünvanlı sosial yardımın təyin olunması, əlillik dərəcəsinin verilməsi və digər məsələlər ilə əlaqədar müraciətlərini səsləndiriblər. Vətəndaşların səsləndirdikləri müraciətlər ayrı-ayrılıqda dinlənilib, məsələlər müzakirə olunub və həllinin araşdırılması üçün aidiyyəti üzrə tapşırıqlar verilib.**

**Vətəndaşlar göstərilən yüksək diqqət və qayğıya, rayon ərazisində aparılan abadlıq- quruculuq işlərinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.**

## *NEFTÇALA RAYONUNDA "YAŞIL DÜNYA NAMİNƏ HƏMRƏYLİK İLİ" ÇƏRÇİVƏSİNDƏ AĞACƏKMƏ AKSİYASI KEÇİRİLİB*









**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 25 dekabr 2023-cü il tarixli Sərəncamına əsasən 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi çərçivəsində BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) həsr edilməsilə əlaqədar olaraq Neftçala Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Neftçala şəhərində növbəti ağacəkmə aksiyası keçirilib və 200-dən çox sərv ağacları əkilib.**

**Aksiyada Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, RİH-nin əməkdaşları, hüquq- mühafizə orqanlarının, YAP Neftçala rayon təşkilatının, idarə, müəssisə, təşkilatların rəhbərləri, İnzibati Ərazi Dairəsi üzrə Nümayəndələr, Neftçala MKTB-nin əməkdaşları və ictimaiyyət nümayəndələri iştirak edib.**

**Ağacəkmə aksiyasının keçirilməsində məqsəd ölkəmizdə keçiriləcək COP 29 –a dəstək, ekoloji vəziyyətin sağlamlaşdırılması, o cümlədən ekoloji mədəniyyəti və təbiətə qayğını təbliğ etmək, iqlim dəyişikliyi ilə mübarizəyə töhfə verməkdir.**

**Neftçala Rayon İcra Hakimiyyəti tərəfindən "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində yeni yaşıllıq zolaqlarının salınması və ekoloji mühitin qorunması istiqamətində tədbirlərin görülməsi il ərzində davam etdiriləcəkdir.**

# ÖLMƏZLİK YOLU VAR --- ÜNVANI ŞƏHİD!

## Aprel döyüşləri şəhidlərinin əziz xatirəsi yad edildi






Neftçala rayonunda 2016 - cı ilin Aprel döyüşlərində şəhid olan Vətən oğullarının əziz xatirəsi ehtiramla yed edildi.

Anım mərasimində Neftçala Rayon İcra Hakimiyyətinin, YAP Neftçala rayon təşkilatının, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların məsul şəxsləri, rəhbərləri, din xadimləri, şəhid ailələri, qazilər, qonaqlar və ictimaiyyət nümayəndələri iştirak edib.

Xatirə günündə Neftçala şəhərinin mərkəzində yerləşən Şəhidlər Abidə Kompleksi, Həsənabad qəsəbəsində yerləşən Şəhidlər parkı, Neftçala şəhəri Şəhidlər Xiyabanında Aprel döyüşləri zamanı şəhid olan Azərbaycanın Milli Qəhrəmanı mayor Samid İmanovun, Aşağı Qaramanlı kəndində şəhid gizir Elimdar Səfərovun və Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi zamanı şəhid olan hərbi qulluqçuların məzarları ziyarət olunub, önünə çiçəklər düzülüb və ruhlarına dualar oxunub. Şəhidlərin əziz xatirəsi, onların müqəddəs yolu heç zaman unudulmayacaqdır. Xalqımız bu fədakar oğulların xatirəsini daim uca tutaraq yaşadacaqdır. Ruhuları şad olsun.

## ONLAR APREL AYINDA DÜNYAYA GÖZ AÇARAQ ÖMÜRLƏRİNİ VƏTƏNƏ FƏDA ETMİŞLƏR!



**Vətən müharibəsi şəhidi baş leytenant Mahmud Təhmasib oğlu Məlikov 3 aprel 1994-cü ildə Neftçala rayonu Xol Qaraqaşlı kəndində anadan olmuşdur. Torpaqlarımızın azadlığı uğrunda mübarizədə - Vətən müharibəsində qəhrəmancasına şəhid olmuş, 29 oktyabr 2020- ci il tarixində doğma kəndində dəfn olunmuşdur. Ruhu şad olsun. Allah səbir versin ailəsinə.**



**Vətən müharibəsi şəhidi İmanov Məmmədağa İqab oğlu 4 Aprel 2001 – ci ildə Neftçala rayonu Dalğa kəndində anadan omuşdur. Vətən müharibəsində qəhrəmancasına şəhid olan Məmmədağa İmanov 1 İyun 2021- ci ildə Neftçala rayon Şəhidlər Xiyabanında dəfn edilmişdir. Ruhu şad olsun. Allah səbir versin ailəsinə.**



**Vətən müharibəsi şəhidi İsmayıl Kamal oğlu Süleymanov 19 Aprel 1997 – ci ildə Neftçala rayonu Yuxarı Qaramanlı kəndində anadan olmuşdur. 2020-ci ilin 10 oktyabr tarixində Vətən müharibəsində qəhrəmancasına şəhid olmuş, doğma kəndində dəfn olunmuşdur. Ruhu şad olsun. Allah səbir versin ailəsinə.**

## RAMAZAN AYINDA İFTAR SÜFRƏSİ VERİLDİ

***Neftçala Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə təşkil olunan iftar süfrəsində Neftçala RİH-nin başçısı Mirhəsən Seyidov, Qafqaz Müsəlmanları İdarəsinin Neftçala rayonu üzrə qazisi Hacı Hüsnü Həsənov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şirvan bölgəsi üzrə şöbənin müdiri Sənan Xəlilov, RİH-in məsul şəxsləri, hüquq- mühafizə orqanlarının, YAP Neftçala rayon təşkilatının, idarə, müəssisə, təşkilatların rəhbərləri, din xadimləri, şəhid ailələri və qazilər iştirak edib.***



***Ulu Öndər Heydər Əliyevin, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi zamanı şəhid olan hərbi qulluqçuların ruhu bir dəqiqəlik sükutla yad olunub və ruhlarına dualar oxunub.***

***Qeyd olunub ki , ölkəmizdə belə dini mərasimlərin təşkil edilməsi respublikamızda yaşayan xalqlar arasında da tolerantlığın qorunması ilə yanaşı dini -mənəvi dəyərlərimizin qorunmasına, təbliğinə təkan verir, şərait yaradır. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan milli-mənəvi, dini dəyərlərimizin qorunması ölkə rəhbəri cənab İlham Əliyev tərəfindən ən layiqli şəkildə davam etdirilir. İftar süfrəsində Qurani Kərimdən surələr oxunub, Ramazan ayının fəzilətlərindən, bu ayın insanlar arasında mənəvi saflıq, paklıq ayı olması qeyd olunub.***



## ŞƏHİD SƏRXAN RABİL OĞLU ƏLİYEVİN XATİRƏSİ YAD EDİLDİ

***Bu vətən, bu torpaq anadır bizə,***
***Biz fəda olarıq hər bir düzünə...***
***Zamanla yazılan tariximizə -***
***Zəfəri ucaldan oğulsan, Sərxan!***

***Söylə, kimin adı yaşar Vətəndə?***
***Minin, milyonların, yüzün içində...***
***Bilirik, zəfərin hər bir izində --***
***Bitməz şəhadətin işığı, Sərxan!***

***Bu torpaq sədaqət rəmzidir, inan,***
***Nə qədər igidlər verib şirin can...***
***Deyirik, ey VƏTƏN, bitməz QƏHRƏMAN!***
***Sən şəhid Qəhrəman, igidsən, Sərxan!***

Neftçala rayon Nizami Gəncəvi adına 3 saylı şəhər tam orta məktəbində antiterror tədbirləri zamanı 2023-cü ilin sentyabr ayının 19 – da şəhid olmuş Sərxan Rabil oğlu Əliyevin xatirəsi yad edilmiş, adı verilmiş sinif otağının açılış mərasimi keçirilmişdir.



Vətən şəhidi Əliyev Sərxan Rabil oğlu 12 sentyabr 2003-cü il tarixdə Neftçala şəhərində anadan olub. 2010-cu ildə N. Gəncəvi adına 3 saylı tam orta məktəbin 1-ci sinfinə daxil olub. 2021-ci ildə həmin məktəbin 11-ci sinfini bitirib. Məktəbi bitirdikdən sonra 4 ay usta köməkçisi işləyib. 2021-ci ilin oktyabr ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Neftçala rayon şöbəsindən həqiqi hərbi xidmətə yola düşüb. 2023-cü ilin aprel ayında hərbi xidmətini başa vurduqdan sonra Vətənə olan sevgisindən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini davam etdirib. 19 sentyabr 2023-cü tarixdə lokal xarakterli antiterror əməliyyatları zamanı qəhrəmancasına şəhadətə ucalmışdır. 20 sentyabr 2023-cü il tarixdə Neftçala şəhərində Şəhidlər Xiyabanında dəfn edilmişdir.



Sərxan Əliyev adı verilən otaqda 7 il təhsil almışdır. Bu illər ərzində dəcəlliyi, istiqanlılığı, səmimiliyi, zəhmətkeşliyi ilə bütün müəllimlərin sevgisini qazanmışdır. Tədbirdə məktəbin müəllim və şagird kollektivi, şəhid ailələri, şəhid Sərxan Əliyevin ailə üzvləri iştirak etmişdir.

Tədbirdə çıxış edənlər şəhidlərin ölməz xatirəsini ehtiramla yad etmiş, onların əziz xatirəsinin heç zaman unudulmayacağını bildirmişlər. Tədbirin təşkilatçısı Vüsalə müəllimə şagirdlərin iştirakı ilə şəhid Sərxan Əliyevin xatirəsinə həsr olunmuş ədəbi kompozisiyanı təqdim etmişdir.

**Ruhu şad olsun. Allah bütün şəhidlərimizi rəhmət eləsin!**

***B. Niftaliyeva***

# HEYDƏR ƏLİYEV FONDU AZƏRBAYCAN HƏQİQƏTLƏRİNİN BEYNƏLXALQ DƏSTƏK QAZANMASINA NAİL OLUB

2⇐ Məhz bu rasional siyasətin nəticəsidir ki, Azərbaycan gerçəklikləri bu gün dünyada yayımlanır, ölkəmizin ictimai, siyasi, mədəni mənzərəsi yüksək səviyyədə təbliğ olunur.

***Heydər Əliyev Fondu Azərbaycan həqiqətlərinin təbliğində, ölkəmizin beynəlxalq nüfuzunun yüksəldilməsində yumşaq gücdən məharətlə istifadə edir. Fondun dəstəyi ilə dünyanın müxtəlif ölkələrində sosial, mədəni və s. layihələrin reallaşdırılması bu baxımdan olduqca əhəmiyyətlidir.***

Milli mədəniyyətimizin inkişaf etdirilməsi və dünyaya çatdırılması istiqamətində görülən işlərdə Ulu öndər Heydər Əliyevin adını daşıyan Fondun xidmətləri əvəzolunmazdır. Heydər Əliyev Fondu zəngin tarixə malik mədəniyyətimizin dünyada tanıdılması və inkişaf etdirilməsi istiqamətində perspektiv fəaliyyət nümayiş etdirir. Fondun dünya mədəniyyətinə və Azərbaycanın milli-mədəni irsinin dirçəlməsinə, habelə muğamın inkişafına yönəlmiş fəaliyyəti xüsusi vurğulanmalıdır. Məhz Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevanın diqqət və qayğısı nəticəsində muğamımızın canlanması müşahidə olunmuş, Azərbaycan muğamı YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. Artıq bu siyahıda qədim aşıq sənətimiz, tarımız, xalçamız, Novruz bayramımız da yer almışdır.

Fondun təşkilatçılığı ilə mötəbər beynəlxalq qurumlarda, dünyanın möhtəşəm şəhərlərində ölkəmizlə bağlı sərgilər, mədəniyyət gecələri və digər tədbirlər keçirilir. Misal olaraq, Avropa Parlamentinin mənzil-iqamətgahında, Afinada, Kannda dünyanın bir sıra digər ölkələrində Azərbaycan mədəniyyəti günlərinin keçirilməsini, Qərbin mədəniyyət beşiyi hesab olunan Fransanın paytaxtında Azərbaycan Mədəniyyət Mərkəzinin açılmasını, dünyanın müxtəlif şəhərlərində görkəmli şəxsiyyətlərimizin abidələrinin ucaldılmasını göstərmək olar. Londonda, Parisdə, Berlində "Bakıya uçuş. Müasir Azərbaycan incəsənəti" sərgiləri, həmçinin dünyanın müxtəlif şəhərlərində nümayiş etdirilən "Azərbaycan – tolerantlıq məkanı" adlı fotosərgilər, Venesiya Biennalesində təşkil olunan Azərbaycan pavilyonlarındakı sərgilər Azərbaycanın dünyada daha yaxından tanıdılması istiqamətindəki xüsusi əhəmiyyəti ilə yanaşı, beynəlxalq ictimaiyyətin də ölkəmizə olan marağının daha da artmasına xidmət edib.

Heydər Əliyev Fondu, həmçinin, ölkəmizdəki və dünyadakı müxtəlif mədəniyyətlərə aid olan abidələrin də təmiri və bərpasını həyata keçirməkdədir. Strasburq Kafedral kilsəsinin XIV əsrə aid olan beş pəncərəsinin, Versal Sarayının parkındakı "Amazonka"nın və "Qulpları favn başları ilə bəzədilmiş vaza"nın, Fransada X-XII əsrlərə aid 7 kilsənin, Bolqarıstanın Veliko Tırnovo şəhərində yerləşən "Trapezitsa" Memarlıq Muzeyi Qoruğunun bərpasını, Romanın Kapitolini Muzeyinin "Filosoflar zalı"nın təmirini həyata keçirən Heydər Əliyev Fondu Parisin Luvr muzeyində İslam incəsənətinə həsr olunmuş yeni zalların yaradılmasında iştirak edib, həmçinin İkinci Dünya müharibəsi illərində dağıdılmış və yandırılmış Berlin qəsrinin bərpası təşəbbüsünə qoşulub. Bundan başqa Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasında imzalanmış "Roma katakombalarının bərpasına dair ikitərəfli Saziş" əsasında Fond xristian aləmi üçün ən mühüm abidələrdən olan katakombaların bərpası işində yaxından iştirak edib. Heydər Əliyev Fondunun bərpasında iştirak etdiyi 60-a yaxın katakombalardan Marçellinio və Pietro katakombaları xristian aləmi üçün ən mühüm və ən maraqlı olanlarıdır və bu addım dinlər və mədəniyyətlərarası dialoqun daha bir parlaq nümunəsi olaraq tarixə yazılıb. Romanın belə nüfuzlu arxeoloji abidəsinin bərpasına töhfəsini verən Heydər Əliyev Fondu tarixi missiyasını həyata keçirmiş oldu.



Fond tərəfindən Pakistanda, Cibutidə, Bosniya və Herseqovina, Misir, Hindistan, Haiti və digər ölkələrdə həyata keçirilən xoşməramlı aksiyalar dünyada Azərbaycana rəğbəti daha da artırır. Xarici ölkələrdə sosial layihələr də həyata keçirən Fond Haitidə, İranda, Türkiyədə, Pakistanda zəlzələnin, Rumıniyada təbii fəlakətin nəticələrinin aradan qaldırılmasına yardım etmişdir. Pakistanın nüfuzlu "Daily Times" qəzetində nəşr olunmuş "Mehriban Əliyeva - humanizm rəmzi" başlıqlı yazıda qeyd olunur ki, 2012-ci ildə Azərbaycanın birinci xanımının təşəbbüsü ilə Pakistanın Hayber-Paxtunva, Bəlucistan, Pəncab və Sind əyalətlərində səhiyyə, təhsil və humanitar layihələrdən ibarət silsilə tədbirlər həyata keçirilib. Bu tədbirlər çərçivəsində kimsəsizlər evində, qadın və uşaqlar üçün xəstəxanada Hepatit B virusuna qarşı peyvəndləşdirmə və açıq ürək əməliyyatları aparılıb.

Heydər Əliyev Fondu tərəfindən dünyanın müxtəlif yerlərində həyata keçirilən infrastruktur layihələri dövlətlərimiz arasında əməkdaşlıq, xalqlarımız arasında dostluq münasibətlərinin inkişafına təkan verir. 2012-ci ilin fevralında Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda yenidən qurulmuş "Dostluq parkı", 2013-cü ildə "Görmə qabiliyyəti məhdud olan uşaqlar və gənclər üçün mərkəz", 2013-cü ildə Rusiyanın Volqoqrad şəhərində "Volqoqrad-Bakı Dostluq Parkı", 2012-ci ilin sentyabrında Həştərxanda "Rusiya-Azərbaycan Dostluq Körpüsü", 2018-ci ildə "Azərbaycan Biznes Mərkəzi" ölkəmizin təbliğinə hesablanmış sosial infrastruktur layihələrindən cəmi bir neçəsidir.

Heydər Əliyev Fondunun layihələri qlobal xarakteri və keyfiyyətinə görə beynəlxalq səviyyədə də müdafiə olunur. Bütün bunlar isə zəmanəmizin qürur doğuran reallığıdır. BMT, İslam Əməkdaşlığı Təşkilatı, İSESKO və onlarca mötəbər qurumun nümayəndələri də Heydər Əliyev Fondunun həyata keçirdiyi böyük layihələri daim yüksək qiymətləndirmişlər. **Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva çoxşaxəli xidmətlərinə görə İSESKO-nun xoşməramlı səfiri adına, "Qızıl ürək" və Dünya Səhiyyə Təşkilatının İhsan Doğramacı adına Ailə Sağlamlığı Fondunun mükafatlarına, "Əsrlərin xeyriyyəçiləri" Beynəlxalq Fondunun Yaqut Xaç ordeninə, Fransanın "Fəxri Legion" ordeninə, YUNESKO-nun "Qızıl Motsart" medalına, Krans Montana Forumunun qızıl medalına, Polşanın "Böyük Komandor Xaçı", Serbiyanın "Sreten", Macarıstanın "Komandor Xaçı", İtaliyanın "Xidmətlərə görə" Böyük Xaç Kavaleri ordenlərinə, TÜRKSAV-ın "Türk dünyasına xidmət" mükafatına, Rusiya Federasiyasının "Dostluq" və "Müqəddəs Mələksima Knyaginya Olqa" ordenlərinə, "Papa Cəngavər Ordeninin ən ali dərəcəsi – IX Piy Ordeninin Böyük Xaçı"na layiq görülüb. Prezident İlham Əliyevin Sərəncamı ilə Mehriban Əliyeva Azərbaycanın ictimai-siyasi və mədəni həyatında səmərəli fəaliyyətinə görə "Heydər Əliyev Ordeni" ilə təltif edilib.** Bütün bunlar Mehriban Əliyevanın, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dünyadakı nüfuzunun, fəaliyyətinə verilən yüksək qiymətin göstəricisidir.

Heydər Əliyev Fondu həyata keçirdiyi, yuxarıda sadalanan və sadalanmayan sosial, infrastruktur, mədəni və s. layihələrlə dünya ictimaiyyətinin Azərbaycanla bağlı məlumatlılığını və ölkəmizə dəstəyini artırmağa nail olub. Məhz görülən işlərin nəticəsidir ki, torpaqlarımızın 30 illik işğalına son qoyan hərbi əməliyyatlar zamanı bütün dünya dövlətləri Azərbaycanın yanında olduğunu ifadə edib. Heydər Əliyev Fondunun tarixi xidmətləri Prezident İlham Əliyev tərəfindən də yüksək qiymətləndirilib. Dövlət başçısı bildirib ki, Azərbaycanın multikultural, müasir dövlət kimi dünyada tanıdılmasında Heydər Əliyev Fondunun müstəsna xidmətləri var: "Məhz fondun fəaliyyəti nəticəsində Azərbaycan daha çox tanınır və məhz bu amil bizə İkinci Qarabağ müharibəsi dövründə kömək göstərdi. Çünki Azərbaycan xalqı yaxşı bilir ki, o vaxt erməni lobbisi və onun havadarları Azərbaycan haqqında olmazın yalanlar uydurub media məkanına atmışlar. Ancaq uzun illər ərzində Heydər Əliyev Fondunun müxtəlif ölkələrdə fəaliyyəti və Azərbaycanın müasir, mütərəqqi dövlət kimi tanıdılması bu təbliğatı alt-üst etmişdir. Bu gün Heydər Əliyev Fondu qarşısında yeni vəzifələr dayanır. Ənənəvi fəaliyyətlə yanaşı, bu gün Fond geniş fəaliyyətə başlamışdır. Fondun təşəbbüsü ilə azad edilmiş torpaqlarda hazırda dini abidələrimizin əsaslı təmiri, bərpa edilməsi və inşası prosesinə start verilib. Şuşa şəhərində Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa, Saatlı məscidləri, Ağdam şəhər məscidi Heydər Əliyev Fondu tərəfindən əsaslı bərpa edilir, Zəngilan şəhər məscidi də həmçinin. Eyni zamanda Daşaltıda, Hadrutda və Şuşa şəhərində yeni məscidlərin tikintisi də məhz Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilir. Təkcə sadaladığım dini abidələrimizin sayı 8-ə bərabərdir və əminəm ki, Fond digər layihələrdə də fəal iştirak edəcək." Bunlarla yanaşı, 29 ildən sonra, 2021-ci il mayın 12-i və 13-də Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Şuşada Cıdır düzündə "Xarıbülbül" musiqi festivalı keçildi. 2021-ci il 30 avqust tarixində Vaqif Poeziya Günləri Şuşa işğaldan azad edildikdən sonra Heydər Əliyev Fondu tərəfindən ilk dəfə şairin doğma şəhərində yenidən təşkil olundu. Ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu Qarabağı 21-ci əsrin mədəni-mənəvi məkanına çevirir.

Fəaliyyətində Ulu Öndərin ideyalarına söykənən Heydər Əliyev Fondunun 20 illik fəaliyyəti dövründə əldə etdiyi nailiyyətlər onun qeyri-hökumət təşkilatı olaraq təkcə Azərbaycanda deyil, beynəlxalq aləmdə böyük nüfuz qazandığını göstərir. Və görülən işlər, həyata keçirilən layihələr, real nəticələr isə bir daha deməyə əsas verir ki, Heydər Əliyevin adını daşıyan fond Azərbaycanın bu günü və gələcəyi naminə bundan da artıq işlərə hazır və qadirdir.

**YENİ AZƏRBAYCAN PARTİYASININ NEFTÇALA RAYON TƏŞKİLATI**

# DƏNLİ VƏ TEXNİKİ BİTKİLƏRİN YIĞIMI DÖVRÜNDƏ VƏ MEŞƏLƏRDƏ YANĞIN TƏHLÜKƏSİZLİYİ QAYDALARI

Kənd təsərrüfatında məsul bir dövrün - dənli və texniki bitkilərin yığımı mövsümünün astanasındayıq. Taxıl yığımı və heyvandarlığın inkişafı məqsədilə mal-qara üçün silos, senaj, quru ot tədarükünün artırılması respublika iqtisadiyyatında önəmli rol oynadığına görə bu sahələrin, bütövlükdə kənd təsərrüfatının inkişafı istiqaməti daim diqqət mərkəzindədir. Əlbəttə, bol məhsul yetişdirməklə yanaşı, onun tədarükü, emalı da mühüm şərtdir. Ona görə də, dənli və texniki bitkilərin tədarükü ilə bağlı qarşıya qoyulan vəzifələrin həllində bu əhəmiyyətli məhsulun, xüsusən strateji əhəmiyyətli taxılın yanğın təhlükəsizliyi də daima diqqət mərkəzində olmalı, bütün zəruri tədbirlər həyata keçirilməlidir. Birinci növbədə qeyd edilməlidir ki, dənli və texniki bitkilərin əkin sahələri ilə yanaşı meşələrin yanğından qorunması tək yanğın təhlükəsizliyi orqanları əməkdaşlarının deyil, həm də aqrar sahədə, o cümlədən fermer təsərrüfatında çalışan bütün şəxslərin ümdə vəzifəsidir və bu sahədə onların qarşısında ciddi tapşırıqlar qoyulur. Qeyd edək ki, hər il ot və taxıl yığımı mövsümünə hazırlıq dövründə Dövlət Yanğın Nəzarəti Xidməti bütün regionlarda yerli icra hakimiyyətlərinin, bələdiyyə sədrlərinin, fermerlərin, aqroservis rəhbərlərinin, meşə mühafizəsi vəbərpası idarələri işçilərinin iştirakı ilə seminarlar, yanğına qarşı təbliğat xarakterli tədbirlər həyata keçirir. Amma hər il bu tədbirlərin keçirilməsinə baxmayaraq, təəssüf ki, taxıl sahələrində, meşələrdə yanğın hadisələri baş verməkdədir. Araşdırma zamanı yanğınların müxtəlif səbəblərdən, siqaret çəkmə zamanı ehtiyatsızlıqdan, nəqliyyat vasitələrinin sistemlərinin, mexanizmlərinin və hissələrinin nasazlığından, yüksək gərginlikli hava elektrik xətlərində baş verən qəzadan, ocaqdan düşən qığılcımdan, kombaynlarda və digər texnikaların atqı borularında qığılcımsöndürənin olmamasından, biçilmiş sahələrin yandırılması səbəbləri ilə baş verdiyi məlum olmuşdur. Biçilmiş taxıl sahələrinin yandırılması qadağandır və buna görə taxıl sahəsinin sahibi məsuliyyət daşıyır. Qeyd edildiyi kimi, ot və taxıl yığımı mövsümünün başlanmasına az qalır. Kombaynların sahələrə çıxdığı, yəni taxıl yığımı, mal-qara üçün silos, senaj, quru ot tədarükü görüldüyü bir vaxtda dənli və texniki bitkilərin yanğından qorunması üçün yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl olunmalıdır. İlk növbədə xüsusi olaraq qeyd edək ki, müvafiq qanunvericilikdə mülkiyyət formasından asılı olmayaraq hər bir təsərrüfat rəhbərinin tabeliyində olan obyektlərin yanğın təhlükəsizliyinə cavabdeh şəxs kimi məsuliyyət daşıması təsbit olunmuşdur. Odur ki, ot biçini və taxıl yığımı başlayan vaxtdan qurtaranadək təsərrüfat rəhbərləri yanğın təhlükəsizliyi qaydalarına əməl olunmasını təmin etməli, bununla əlaqədar kənd təsərrüfatı işçiləri arasında müvafiq maarifləndirmə işləri aparmalıdırlar.Taxıl və ot, küləş yığımına başlamazdan qabaq bütün təsərrüfat rəhbərləri kənd təsərrüfatı texnikasını ilkin yanğınsöndürmə vasitələri ilə təmin etməli, dənli və texniki bitkilərin yığılması, daşınması, emalı və saxlanması dövründə yanğın təhlükəsizliyinə nəzarət etmək üçün müvafiq əmrlə cavabdeh şəxslər təyin etməlidirlər. Məhsul yığımında iştirak edən traktor və kombayn sürücüləri, onların köməkçiləri,digər mexanizatorlar, eləcə də məhsul yığımına cəlb edilən hər bir şəxs müvafiq qaydada xüsusi proqram üzrə yanğına qarşı təlimatlandırılmalıdırlar. Yanğın təhlükəsizliyi üzrə təlimatlandırılmayan şəxslərin məhsul yığımında iştirakına yol verilməməlidir. Taxıl yığımında iştirak edən texnika yığıma başlamazdan əvvəl yanğın-texniki müayinədən keçirilməli, onların yanğın təhlükəsizliyi tələblərinə cavab verməsi barədə akt tərtib edildikdən sonra sahəyə buraxılmalıdırlar. Məhsul yığımında iştirak edən bütün texnikaların mühərriklərinin atqı boruları qığılcımsöndürənlərlə təmin edilməli, kollektorların birləşmə hissələrinin və atqı borusunun ara qatlarında zədələnmələr olmamalıdır. Əgər məhsul yığımı ilə eyni vaxtda biçilməmiş taxıl zəmilərinin yaxınlığında payız şumlanma işləri aparılarsa, onda şum traktorları da qığılcımsöndürənlərlə təmin edilməlidir. Mühərrikin çıxış kollektoruna küləşli məhsulların düşməsinin qarşısını almaq məqsədilə kapotsuz və ya kapotu açıq olan texnikaların istifadəsinə icazə verilməməlidir. Yığımda iştirak edən texnikaların yanğın təhlükəsizliyi tələblərinə uyğun olması hər bir müəssisədə təşkil olunmuş xüsusi komissiya tərəfindən yerli Dövlət Yanğın Nəzarəti orqanının əməkdaşı ilə birgə yoxlanılmalıdır. Dənli və texniki bitkilərin yetişdiyi dövrdə yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə bir sıra digər zəruri tədbirlər təxirə salınmadan həyata keçirilməlidir. Belə ki, meşə zolaqları, avtomobil və dəmir yolları taxıl zəmilərinə yaxın olduqda onların arası biçilməli və eni 4 metrdən az olmamaqla şumlanmalıdır. Biçilmiş ot, taxıl zəmilərindən ən azı 30 metr aralıda tayaya vurulmalıdır.Taxıl yetişən zaman cavabdeh şəxslər tərəfindən zəmiləri yanğından qorumaq məqsədi ilə keşikçilər ayrılmalıdır. Biçilmiş ot və taxıl həmin sahədən kənara daşınmalıdır.Taxıl yığımı, ot tədarükü zamanı müvəqqəti tarla düşərgələri taxıl zəmilərindən, xırmanlardan və s. yanğın təhlükəli yerlərdən ən azı 100 metr kənarda yerləşdirilməlidir. Məhsul yığımı dövründə bir sıra zəruri yanğın təhlükəsizliyi tədbirləri həyata keçirilməlidir. Biçin işi aparılan taxıl zəmilərinin yaxınlığında baş verə biləcək yanğınların qarşısını almaq məqsədilə kotanlı traktorlar olmalı, taxıl zəmilərində və onların yaxınlığında küləş yandırılması və tonqal qalanmasına yol verilməməlidir. Tarla şəraitində traktor, kombayn və digər maşınların yanacaqla təmin edilməsi onların mühərriklərinin işi dayandırıldıqdan sonra yanacaqdolduran maşınlarla həyata keçirilməlidir. Gecə vaxtı texnikaların yanacaqla doldurulması yolverilməzdir. Bir daha xatırladırıq ki, kənd təsərrüfatı məhsullarının, xüsusən də taxılın oddan qorunması hamının şərəf işi olmalıdır!Unutmamalıyıq ki, taxıl bərəkətdir, ruzidir və o, böyük zəhmət hesabına yetişdirilir. Meşələrin yanğın təhlükəsizliyi də daim diqqət mərkəzində saxlanılmalıdır.Belə hadisələrin qarşısının alınmasında aidiyyəti dövlət orqanları ilə yanaşı, vətəndaşların da üzərilərinə çox mühüm vəzifələr düşür. Qeyd edək ki, külli miqdarda ziyanla nəticələnən yanğın hadisələrinin baş verməməsi üçün yay mövsümündə qabaqlayıcı tədbirlərin görülməsinə daha çox diqqət yetirilməlidir. Təbiətə xüsusi gözəllik bəxş edən meşələrin yanğından qorunması, ən qiymətli sərvətlərimizdən birinin qorunması deməkdir. Çünki insanların həyat fəaliyyətində, onların sağlamlığında mühüm rol oynayan meşələrin də daim qayğıya ehtiyacı vardır. Meşələrdən bəhrələnməklə, onun nemətlərindən istifadə etməklə yanaşı, təbiətin bu əvəzsiz nemətini qorumaq, onu gələcək nəsillərə ərməğan etmək hər bir vətəndaşın mənəvi borcudur. Meşələrin məhv olmasının əsas səbəblərindən biri də yanğınlara məruz qalmasıdır. Məhz buna görə insanların həyat fəaliyyətində mühüm rol oynayan meşələri yanğından qorumaq üçün Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti isti yay günlərində vətəndaşlara yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət etmələrini tövsiyə edir. Meşələrdə yanğın təhlükəsizliyinə cavabdeh olan şəxslər, o cümlədən meşə-mühafizəsi mühəndisləri meşələrin yanğın təhlükəsizliyi qaydalarını bilməklə, meşə sahələrində və zolaqlarında yanğına qarşı rejim təyin etməli və ona ciddi riayət olunmasını daim nəzarətdə saxlamalıdırlar. Meşə təsərrüfatının rəhbər işçiləri, yanğınsöndürmə texnikalarını və vasitələrini, təbii və süni su mənbələrinin, keçidlərin, yolların vəziyyətini daim yoxlamalı, mütəmadi olaraq işçilərlə yanğından mühafizə xidmətinin çağırılması, yanğınsöndürmə avadanlıqlarından düzgün istifadə edilməsi ilə əlaqədar məşqlər keçirməlidirlər. Meşə və meşə zolaqlarında yanğınların baş verməsinə səbəb ola bilən amillərin aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi, həmçinin yanğınsöndürmə vasitələrinə vaxtlı-vaxtında texniki xidmət göstərilməsi də zəruridir.



Meşə təsərrüfatında yanğın təhlükəsizliyinə məsul olan şəxslər yanğın təhlükəsizliyi qaydalarına riayət olunmasına nəzarət məqsədilə meşə sahələrinə və zolaqlarına vaxtaşırı baxış keçirməli, yanğın baş verən zaman yanğınsöndürmə xidmətinin hadisə yerinə çağırılması üçün tədbirlər görməli, yanğının söndürülməsi üçün mövcud vasitələri təşkil etməlidirlər. Meşə sahələrində baş verən 10 yanğından 9-u odla ehtiyatsızlıqdan, meşədə iş və ya istirahət zamanı insanların yanğın təhlükəsizliyi qaydalarını pozmaları səbəbindən baş verir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, meşədə və ya meşəətrafı sahələrdə yandırılmış tonqallar və bu tonqalların tam söndürülmədən nəzarətsiz qalması meşə yanğınlarına səbəb ola bilər. Söndürülməmiş kibritin, siqaret kötüyünün meşəyə atılması, maşınların mühərrikindən qopan qığılcımlar da yanğının törənməsinə səbəb ola bilər. Yanğın təhlükəsi olan meşə sahələri, meşə yolları və digər torpaqlarla həmsərhəd olan sahələr yanğın əleyhinə 2-3 metr enində şumlanmalı, meşənin quru ot və odun qalıqlarından təmizlənməsi və meşə ərazisində yerləşdirilən hər hansı tikilinin ətrafının 15 metr radiusda şumlanması təmin edilməlidir. Meşədən və ya meşə zolağından keçən avtomobil və dəmir yollarının hər iki tərəfi 10 metr məsafədə yanar materiallardan təmizlənməli, meşələr yanğına qarşı minerallaşdırılmış zolaqlarla təmin edilməlidir. Ot-taxıl biçini mövsümündə tarlalarda və meşə massivlərində yuxarıda qeyd edilən yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl edilməsi üçün hər birimiz üzərimizə düşən vəzifəni yerinə yetirməklə, sağlamlığımızın mənbəyi olan meşələrimizin yanğından qorunmasını təmin edək!

**Fövqəladə Hallar Nazirliyinin**
**Dövlət Yanğın Nəzarəti Xidmətinin**
**Muğan Regional Dövlət Yanğın**
**Nəzarəti İdarəsi**

# "YOL VERİN SÖZLƏRİMƏ..."

"Təkəm...Otağımda... Fikirlərimlə yalnız.
Kimləri xatırladım: Zərifə bacım,
Sevda bacım,
Qəsəbəmi, evimi.
İçində - həyat yaşadığım məktəbimi...
Heç unuda bilirəm ki...

Yollarına, yollardakı izlərinə, xitabət kürsüsündən möhtəşəm səslənən sözlərimə, şagirdlərimin sevgi dolu gözlərinə, öyrənmək istəyən istəklərinə, bir dünya dolu sinif otağıma (sinif otağı deyildi - əslində mədəniyyət səhnəsinin özü idi) səslənən şeirlərin mənasına, ifasına, tələffüzünə qiymət burada verilirdi. Füzuli burada sevdirilirdi (Müəllim, dili çətindir, öyrənə bilməyəcəyəm - deyən şagirdimin sonradan Füzuliyə bağlılığı, Xətai qüruru, Nəsimi dili (Bu quş dilidir, onu Süleyman bilir ancaq) yoxlamalar, sınaqlar, bilik yarışları, sənətkarların yaradıcılıq xüsusiyyətləri burada şagird – zehninə həkk olunurdu. Vaqifin qoşmaları gələcəyin sevgi xitabına çevrilirdi - əgər qaydasında deyilərsə...

Bağlıyam sənə məktəbim... Özüm səndən ayrıldım. Həsrətindən xəstə düşdüm. Sən də mənim üçün alışdın, yox oldun, daşını daş üstə qoymadılar...

Səndəmi can çəkirsən? Məktəbim, yaddaşımda yaşayırsan. Ruhumun notlu duyğuları səninlə ahənglənir. Şagirdlərimin dil sevgisi, ədəbiyyat sevgisi səndən başlayır. Hər tərəfində, sinif otağında, həyətində, yollarda, sənətimin daşıyıcısı, sevənləri ilə ülfət qurdum. Səni sevdim sənətim, peşəm məktəbim..."



------------------------------------

***Bankə qəsəbə 1 saylı tam orta məktəbində uzun illər Azərbaycan dili və ədəbiyyatı müəllimi işləyən Şəhrəbanu Babayevanın qələm nümunələrini sizlərlə bölüşürük, əziz oxucular. İnsan ömrü, taleyi o qədər qəribədir ki, gücünü, bütün qüvvətini, həvəsini, arzusunu verdiyin həyat son anda insanı yorar, amma sınaqları, imtahanları bitməz. Bu gün Şəhrəbanu müəllimə təqaüdə çıxsa da, xəstəliklə mübarizə aparsa da, cəmiyyətə göndərdiyi hər bir şagirdi onun səsidir, sözüdür. O, çox dəyərli insan, gözəl müəllimədir. Bu ömür təqaüdə çıxmaqla bitməz, daim narahat duyğuları ilə mübarizə aparar, daha çox gərəkli olmaq üçün çırpınar. Bəli, bu narahat ömrü yaşayan əsl müəllim ömrü yaşayıb və yaşayır, əziz Şəhrəbanu müəllimə. Biz sizə can sağlığı, uca Allahın qüdrətilə hələ uzun bir zaman xalqa sözü ilə, elmi, məsləhəti, tösiyəsi ilə yaşamağı arzu edirik.***

***Şəhrəbanu müəllimə haqqında çox yazmadan sözü onun qələm nümunələrinə vermək, oxucularımızla birlikdə elimizin bu dəyərli elm ziyasının dünyasına daha yaxından baxmaq məqsədilə sözümü burada yekunlaşdırıram. Nə yaxşı ki, varsınız, əziz Şəhrəbanu müəllimə. Sizi sevənlər uzaqda, yaxında olmasından asılı olmayaraq o müqəddəs işığınız daim görünür və əbədi görünəcəkdir. Allah sizi və sevdiklərinizi qorusun. Amin!***

***Sizi eyni zamanda 2023-cü ildə çap edilən "Məni sözlər yaşadar" kitabınızın nəşr olunması münasibətilə ürəkdən təbrik edir, gözəl ürəyinizlə, dünya dolu sözünüzlə var olun deyirik.***

**Şəhrəbanu Babayeva: "Məni sözlər yaşadar" kitabından:** *"Sözlə dünyaya gəldim. Allahın "OL" kəlməsiylə. Anam sözlə böyütdü, laylalı nəğməsiylə. Sözlə həyat yaşadım. Ömrümün mayası söz sənətimə yar oldu. Sözü araşdıraraq sözün müəllimi oldum. Söz mənim qiymətimdir. Sadə peşəsinin ruhu sözlərlə zinət tapdı. Neçə-neçə şagirdim sözlə həyat qazandı. Bərim-bəzəyim yox, qızıl-gümüş sevmirəm. Mən sözlər axtarıram inci, gövhər, saf olsun. Dostlara pay, ərməğan, düşmənə cavab verən güclü silah olsun. Ömrümün mənasını mən sözlərdə görürəm. Sevgimi sözə verdim... Mən sözlərlə başladım cümlələrin başını. Mən sözlərlə bitirdim hikmətli sözlərimin nidasını. Könlümü sözə verdim. Sözlər qəlbimin açarıdır. Soybağlarım, sözbağlarım, Dədə Qorqud kökündən, Nizami hikmətindən, Füzuli sənətindən,sadə insan ömründən, müəllim peşəsindən mayalanıb əzəldən.*

*Sözlər məni yaşadar elimdə, oymağımda... Mən sözlər aşiqiyəm... Sözlər başımın tacı. Hər sözümü, sevgimi, qəzəbimi, arzumu, diləyimi mən sözlərə söylədim...İndi növbə sizindir.* ***Yol verin sözlərimə...***

*Sözlər desin sözümü. Məni sözlər tanıdar, məni sözlər yaşadar... Sözlərə xidmət etdim 65 yaşadək. Sözlər məni tanıdar, sözlər məni yaşadar.*

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin məzunu,
Neftçala rayonu Bankə qəsəbəsinin 1 saylı tam orta məktəbinin
Azərbaycan dili və ədəbiyyatı müəllimi
Şəhrəbanu müəllimə.**

➡ 8

# AİLƏ CƏMİYYƏTİN QORUYUCUSU, DÖVLƏTİN DAYAĞIDIR!

***"Bayrakları bayrak yapan üstündəki qandır,
Toprak, əgər uğrunda ölən varsa, Vətəndir"!***
**(Mithat Cemal Kuntay)**



Milli-mənəvi dəyərlərimizin qorunması hər zaman olduğu kimi bu gün də cəmiyyətimizdə vacib amildir. Dəyərlərimizin qorunması, düşüncələrdə möhkəmləndirilməsi hər bir şəxsiyyətin ilkin tərbiyə aldığı ocağından başlayır, daha sonra məktəb təhsili ilə inkişaf edir və nəticədə cəmiyyət üçün şüurlu vətəndaş formalaşır. Bu mənada cəmiyyətimizi təmsil edən ailələr nə qədər möhkəm təməl üzərində qurularsa, bu gələcəkdə də cəmiyyətimiz üçün böyük əhəmiyyət kəsb edər, onun sağlam inkişafı üçün zəmin yaradar, onun saflığına müsbət təsir göstərər.

Ailə kiçik dövlətdir deyirlər çox zaman. Onun nə qədər möhkəm olması, qorunması, gələcəkdə vətənə xeyirli övladlar tərbiyə edə bilməsi vacib amildir. Dəyərli ailələr hər zaman xalqımız tərəfindən sevilib, seçilib, qiymətləndirilib.

"Gündoğar" qəzeti də cəmiyyətimizdə nümunə olacaq ailələr haqqında, onların xoş sorağı haqqında məlumat paylaşmaqdan qürur duyur. Doğma Neftçalamızda öz xidməti, ləyaqətli yolu ilə seçilən ailələr çoxdur. Onlardan biri də rayonumuzun Boyat kəndində yaşayan Əhməd Əliyevin ailəsidir.

Əhməd Səmədağa oğlu Əliyev Boyat kəndində anadan olub. Orta təhsilini kənd məktəbində başa vuraraq təhsilini davam etdirmiş, 1991-1996-cı illərdə Kənd Təsərrüfatı Akademiyasının "Kənd təsərrüfatının mexanikləşdirilməsi" fakültəsini bitirmişdir. 1996-2000 - ci illərdə Azərbaycan Silahlı Qüvvələrində xidmət etmiş, ərazi üzrə baş leytenant rütbəsində Tovuz rayonunda düşmənlə üzbəüz xidmət göstərmişdir. 2004-cü ildən bu günə kimi Şirvan - Salyan Regional Mədəniyyət İdarəsinin Neftçala rayon Mədəniyyət Mərkəzinin Boyat kənd Diyarşünaslıq evində müdir işləyir. İşində hər zaman məsuliyyəti ilə seçilən Əhməd Əliyev kollektivin, rəhbərliyin də böyük rəğbətini qazanmışdır.

Torpaqlarımızın azadlığı uğrunda 2020-ci il 27 sentyabr tarixində Vətən müharibəsi başladıldıqda Əhməd Əliyev də müharibədən altı gün əvvəl təlimlərə qoşulmuş, 21 sentyabr tarixindən təlimlərdə iştirak etmişdir. Vətən müharibəsinin ilk günlərindən Əhməd Əliyev Reaktiv Batareyanın 1-ci taqım komandiri kimi döyüşə başlayaraq TOS - 1A markalı döyüş maşınının komandiri olaraq şərəflə döyüşmüşdür. Onun döyüş yolu Füzuli, Cəbrayıl, Qubadlı, Hadrut da daxil olmaqla davam etmişdir. Baş leytenant Əhməd Əliyev həmçinin Vətən müharibəsi şəhidi leytenant Mirzağa Məmmədbağır oğlu Əliyevin döyüş yoldaşı olmuş, düşmənə qarşı çiyin-çiyinə döyüş yolu getmişdir. Allah bütün şəhidlərimizin məkanın behişt eləsin, ailələrinə səbir versin.

Vətən müharibəsi bitdikdən sonra da bir müddət xidmətdə olan Əhməd Əliyev ona olan etimadı layiqincə doğrultmuşdur. Baş leytenant Əhməd Əliyevin Vətən qarşısında xidmətləri dəyərləndirilmiş, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022 - ci il 21 aprel tarixli 250s nömrəli Sərəncamı ilə **"Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif edilmişdir.** Bu gün də yaşadığı kənddə öz fəaliyyəti ilə seçilir. cəmiyyətimizə xidmət edir.

Əhməd Əliyev eyni zamanda gözəl ailəsi ilə də fərqlənir. İki övlad atası olan Əhməd Əliyevin ilk övladı Fatimə Əlizadə Bakı Dövlət Universitetinin Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin II kurs




tələbəsidir. İkinci övladı Səmədağa Əlizadə isə Boyat kənd orta məktəbində təhsilini uğurla başa çatdırmış, hələ 11-ci sinifdə oxuduğu zaman respublika fənn olimpiadasında biologiya fənni üzrə 3-cü yeri qazanmışdır. Hal - hazırda Səmədağa Əlizadə Azərbaycan Tibb Universitetinin I kurs tələbəsidir. Arzusu gələcəkdə beyin cərrahı olmaqdır. Aprel ayının 24 - də Səmədağanın ad günüdür, 18 yaşı tamam olur. Hər iki tələbə gənclərimizə seçdikləri yolda uğurlu gələcək, bütün ailə üzvləri, valideynləri ilə birlikdə can sağlığı, xoş günlər, vətən üçün xeyirli fəaliyyət diləyirik.

Bu gün hər bir ailədə tərbiyə alaraq cəmiyyətin aparıcı gəncinə çevrilən övladlar gələcəkdə vətənimizin ucalığı, onun dəyərlərinin qorunması istiqamətində çalışacaqlar. Onların zehni, düşüncəsi nə qədər vətənsevər olarsa, xalqımızın tarixinə, milli -mənəvi dəyərlərimizə bağlı olarsa, Azərbaycanımız da hər zamandan daha yüksək səviyyədə inkişaf edər, ucalar. Biz dövlətimizi təmsil edən hər bir ləyaqətli vətəndaşımızla fəxr edirik. Eləcə də, həmyerlimiz, Vətən müharibəsi iştirakçısı baş leytenant Əhməd Əliyev və onun gözəl ailəsini cəmiyyətimizin dəyərli ailələri sırasında görmək hər birimiz üçün qürurdur. Xalqa faydalı ömür yolu ilə seçilən Əhməd Əliyevə gələcək illərdə də daim seçilən fəaliyyətində nailiyyətlər, bütün ailə üzvləri ilə birlikdə can sağlığı, ailə xoşbəxtliyi diləyirik.

***B. Niftaliyeva***

GÜNDOĞAR

GÜNDOĞAR

GÜNDOĞAR

# MEŞƏLƏRİ YANĞINDAN QORUYUN !

Bioloji cəhətdən öz inkişafında bir-birinə qarşılıqlı təsir göstərən torpağın, suyun, ağac, kol, ot bitkilərinin, heyvanat aləminin, mikroorqanizimlərin vəhdəti hesab edilən meşə sahələri Azərbaycanın ən qiymətli milli təbii sərvəti hesab olunur.

Təəssüf hissi ilə qeyd etməliyik ki, bəzən ayrı-ayrı insanların meşə təsərrüfatına qayğısızlığı, onun qorunub saxlanılmasına laqeydliyi meşə ərazisində kortəbii, idarə olunmayan alovun yayılması və bütün ərazidəki bitki örtüyünün yanması ilə nəticələnən meşə yanğınları törədərək təbiətin bu əvəzsiz nemətinin məhv olmasına gətirib çıxarır.

Meşə yanğınlarından bəhs edərkən xüsusi ilə vurğulanmalıdır ki, bu sahədə baş verən 10 yanğından 9-u ehtiyatsız davranmadan və ya meşədə iş və istirahət zamanı insanların yanğın təhlükəsizliyi qaydalarını pozması səbəbindən baş verir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, isinmək, xörək bişirmək üçün qalanmış tonqallar və meşəni tərk edərkən bu tonqalların tam söndürülmədən nəzarətsiz qoyulması meşə yanğınlarına səbəb olur. Söndürülmədən kibritin, siqaret kötüyünün meşəyə atılması, maşınların mühərrikindən qopan qığılcımlar da yanğın törədir.

Meşədə yanğınlara yol verilməməsi üçün yanğın təhlükəsizliyi istiqamətində bir sıra qaydalara əməl olunması zəruridir. Meşə sahələrində söndürülməmiş kibritin, yanan siqaret qalığının və ya kötüyünün atılması, eləcə də tonqalların yandırılması və ağac kömürü istehsal etmək üçün xüsusi ocaqxanaların təşkil edilməsi qadağandır. Küləkli havada tonqalların qalanması xüsusi ilə təhlükəlidir.

Meşələrə sürtkü yağı, benzin, ağ neft, dizel yanacağı, və digər yanar mayelərə bulaşmış əski və digər materialları atmaq olmaz. Müəyyən olunmamış yerlərdə avtomobil, traktor və digər daxili yanma mühərrikli aqreqatların yanacaqla doldurulması, eləcə də onların yaxınlığında siqaret çəkilməsi, tonqal yandırılması yanğın təhlükəli olduğundan yolverilməzdir. Dövlət meşə fondunun, meşə torpaq fondu ilə həmsərhəd olan sahələrdə qurumuş otların, kövşənlərin müəssisələr, idarələr təşkilatlar və fermer təsərrüfatları, eləcə də əhali tərəfindən yandırılmasına icazə verilməməlidir. Meşələrdə yanacaq sürtkü yağlarının açıq şəkildə saxlanılması da yanğın təhlükəlidir. Yanğın təhlükəsindən uzaq olmaq üçün meşədə emal edilmiş hazır meşə materialları açıq sahədə müəyyən olunmuş qaydada yığılıb saxlanılmalıdır.

Turist istirahət zonaları, gənclər və uşaq təşkilatları tərəfindən dövlət meşə fondu torpağında keçirilən kütləvi tədbirlər zamanı tonqallar yalnız Meşə mühafizəsi və bərpası müəssisəsinin icazəsi ilə bu təşkilatın ayırdığı xüsusi yerlərdə qalana bilər. Tonqal heç bir halda ağacın altında (xüsusən də budaqları aşağı sallanan ağacların altında) yandırılmamalıdır. Quru ağac kötükləri və quru ot olan ərazidə də od qalamaq olmaz. Tonqalı söndürüb oranı tərk edən zaman közün üstü torpaqla örtülməlidir. Söndürülmüş tonqaldan tüstü və ya buxar çıxarsa, onda aralanıb getmək, tələsmək olmaz. Gedərkən əmin olmaq lazımdır ki, tonqal tam sönüb və sonradan alışma ehtimalı yoxdur.

Yanğın təhlükəsi olan meşə sahələri, meşə yolları və digər torpaqlarla həmsərhəd olan sahələr yanğın əleyhinə 2-3 metr enində şumlanmalı, meşənin tör-töküntülərdən təmizlənməsi təmin edilməli, meşə ərazisində yerləşdirilən hər hansı tikilinin ətrafı 15 metr radiusunda şumlanmalı və ya yanğına qarşı minerallaşdırılmış zolaqlarla təmin edilməlidir. Bütün bunlarla yanaşı meşələrimizlə əlaqəsi olan hər bir vətəndaş təbiətin bu əvəzsiz sərvətinin yanğın təhlükəsizliyinin qayğısına qalmalıdır.

**FÖVQƏLADƏ HALLAR NAZİRLİYİNİN DÖVLƏT YANĞIN NƏZARƏTİ XİDMƏTİNİN MUĞAN REGİONAL DÖVLƏT YANĞIN NƏZARƏTİ İDARƏSİ**

# ELAN

**Bildirilir ki, 23 fevral 2024-cü il tarixdə Neftçala rayon Qırmızıkənd İ. Ə. D. Nümayəndəliyində fəaliyyət göstərən Qırmızıkənd Sudan İstifadəedənlər Birliyinin Növbədənkənar Ümumi Yığıncağının №1 nömrəli protokoluna əsasən, Neftçala rayon Qırmızıkənd İ.Ə. D. Nümayəndəliyində yerləşən Qırmızıkənd SİB - i qoşulma prinsipi əsasında həmin ərazidə yerləşən ÜFÜQ SİB - nə birləşdirilmişdir.**

**Gözü nur, nuru göz zinətləndirir. (Nizami Gəncəvi)**

**Qalib gələcəkmi cahanda kamal?! (S. Vurğun)**

7 ←

## YOL VERİN SÖZLƏRİMƏ...

Tək qalanda...




Sükunətə
düşmənəm...
Səs-küyü xoşlayıram
Xoş məram
nöqtələrdə...
Tək qalmaq istəyim.

Öz əlim, öz başım
deyəndə də
Fikrim çaşır, deyəsən.
Söyləyirəm təzədən,
Tənha qalmaq istəyi.
Təkcə düşünmək
üçün
Düzgün qərar
çıxarım.
Heç kəsə yük, əziyyət,
Olmayım -
fikrindəyəm.
Bəzən küskün
ruhumun
Təzələmək istəyi.
Tənha
qalmaq...istəmək.

Mənə gəlir elə ki,
Heç kəs istəyə bilməz.
İnsan insan olanda
Özünə dost, yoldaşı,
Qonşu, qulaq yoldaşı,
Munis sözlər sirdaşı,
Tənha olmaq istəmir,
Mənim kimi adamla.
Qoy evim səhnə olsun
Tamaşaçı balalar,
Aktyorlar gələnlər,
Nəvələrim... qonaqlar,
Evim, sevinc, qəh-
qəhə,
Gülüş məkanı olsun.
Yuxuya getməsinlər,
Qoy desinlər,

gülsünlər.
Təkcə bircə o anda
Mən sükut istəyirəm.
Səs salmasın deyərəm,
Barmağı dodağıma
Yüngülcə
toxundurub,
Körpə yatır deyirəm.
Sərhəd qoy səssiz
olsun...
Atılmasın güllələr...
Partlamasın
mərmilər...
Anaların ürəyi
Sakit olsun deyirəm.
Tənha olmağı yalnız
Təkcə onda sevirəm.

## Azərbaycan Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı (MİHİ) Neftçala rayon Komitəsinin XIX hesabat- seçki konfransı keçirildi



Aprel ayının 29-da Neftçala rayon Heydər Əliyev Mərkəzində Azərbaycan Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı (MİHİ) Neftçala rayon Komitəsinin XIX hesabat- seçki konfransı keçirildi. Konfransda MİHİ RK-nın Maliyyə şöbəsinin müdiri T.Yusifov, Neftçala Rayon İcra Hakimiyyətinin məsul işçisi F.Əhmədov, Neftçala rayon Gənclər və İdman sektorunun müdiri A.Əhmədov, Şirvan-Salyan Regional Mədəniyyət İdarəsinin Rəis müavini

E. Müstafayev, Şirvan -Salyan Regional Mədəniyyət İdarəsinin Neftçala rayon Nümayəndəsi

E. Kazımova, Neftçala rayon Mədəniyyət İşçiləri Həmkarlar Komit'sinin sədri G. Mürsəlova, Neftçala rayon "Gündoğar" qəzetinin baş redaktoru B. Niftaliyeva, Şirvan - Salyan Regional Mədəniyyət İdarəsinin Neftçala rayon üzrə Mədəniyyət müəssisələrinin, o cümlədən Neftçala şəhər C. İsmayılov adına Uşaq İncəsənət Məktəbinin, Neftçala rayon Tarix Diyarşünüslıq Muzeyinin, Neftçala rayon Dövlət Rəsm Qaleriyasının, Neftçala rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin, Neftçala rayon Heydər Əliyev Mərkəzinin rəhbərləri, fəallar iştirak edib.

Konfransda Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda can fəda edən şəhidlərin xatirəsi yad edildi. Azərbaycan Mədəniyyət İşçiləri Həmarlar İttifaqı (MİHİ) Neftçala rayon Komitəsinin XIX hesabatı dinlənildi. Hesabat məruzəsində Neftçala rayon Komitəsinin sədri Gülqayıt Mürsəlova yeddi il müddətində görülmüş işlər haqqında ətraflı məlumat verdi. Təftiş Komissiyasının sədri Zəminə Axundovanın hesabat məruzəsi dinlənildi. Məruzlər ətrafında çıxışlardan sonra MİHİ rayon Komitəsinin 2017-2023-cü illər ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirildi, təftiş komissiyasının hesabatı təsdiq olundu. Təftiş və yeni tərkibin seçilməsi ayrı-ayrılıqda səsə qoyuldu. Daha sonra MİHİ Neftçala rayon Komitəsinin sədri vəzifəsinə səs çoxluğu ilə yenidən seçilən Gülqayıt Mürsəlova təlimata uyğun olaraq MİHİ Respublika Komitəsinə üzv və Komitənin XIX Konfransına nümayəndə seçilməsi dəstəkləndi. Sonda Neftçala rayon Mədəniyyət İşçiləri Həmkarlar Təşkilatının sədri G.Mürsəlova tərəfindən bir qrup əməkdaşlar səmərəli fəaliyyətlərinə görə Fəxri Fərman və hədiyyələrlə mükafatlandırıldı.

# ELAN

**Bildirilir ki, Neftçala rayon Xol Qaraqaşlı kənd sakini Hüseynov Teyyub Tapdıq oğluna məxsus**

**A № 062967 nömrəli (tam)**
**1500 kv. kənd təsərrüfatı təyinatlı torpaq sahəsinin,**

**A № 062966 nömrəli(tam)**
**26997 kv.m kənd təsərrüfatı təyinatlı torpaq sahəsinin,**

**A № 062965 nömrəli(tam)**
**54 000 kv.m kənd təsərrüfatı təyinatlı torpaq sahəsinin,**

**JN - 007A --(ümumi birgə, üç nəfər ailə üzvləri ilə birlikdə) 0, 19 ha həyətyani torpaq sahəsinin sənədləri itdiyi üçün etibarsız sayılır.**

**ABUNƏ OL, BİRLİKDƏ YAŞADAQ!**

Baş redaktor
B.H. NİFTALİYEVA

ÜNVAN:Neftçala şəhəri, H. Əliyev prospekti 38
Telefon:(021) 26-3-44-03
VÖEN:6500044671
AZ95AIIB33080019446400258164

Həyat hərəkət deməkdir,
su da axmayanda iylənir.
(Aristotel)

Qəzet "Gündoğar"ın redaksiyasında yığılıb, səhifələnib, "AZƏRMedia" mətbəəsində çap olunmuşdur. Tiraj:250